*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyun 2019-cu il № 46 (2363) Qiyməti 30 qəpik


# 15 İyun Milli Qurtuluş Günüdür

*Böyük əhəmiyyət daşıyan tarixi günlərdə gələcək həyatı müəyyən edən böyük başlanğıcların əsası qoyulur. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik gündür. Vətənini, xalqını sevən, çətin günlərin ağrılarını, dəhşətlərini yaşayan, hadisələri görənlər üçün 15 iyun əsl qurtuluş günü, Azərbaycan dövlətçiliyinin ölüm-dirim mübarizəsinin tarixidir.*

## “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir”



1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası SSRİ-nin tərkibindən çıxaraq müstəqilliyini elan etdi. Əsrin əvvəlindən fərqli olaraq, bu dəfə müstəqilliyin ömrü əbədi olmalı idi...

Müstəqilliyin ilk illərində dövlətin idarəçiliyini ələ alaraq xalqı bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Ölkədə özbaşınalıq hökm sürürdü, orduda vəziyyət ağır idi. Erməni təcavüzü güclənirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Bu dövrdə ərazilərimizin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu.

Sonralar ümummilli lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyası ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı.

Ümummilli lider Heydər Əliyev ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaratdı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başladı. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

**(Ardı 2-ci səhifədə)**

# "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir"




Ümummilli lider Heydər Əliyev:

*Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm.*

(Əvvəli 1-ci səhifədə)

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirdi. 15 İyun - Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Ötən illərdə Ümummilli Liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradəsi sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Neçə ildir ki, Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz". Bu inam, bu qətiyyət Milli Qurtuluş gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etmiş, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdur. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

Tarix təsdiqlədi ki, milli qurtuluşdan başlanan yol Azərbaycana zəfərlər gətirdi...

Ötən əsrin 80-ci illərinin sonlarından xalqımızın milli azadlıq hərəkatı genişləndi. Bu hərəkatın belə geniş vüsət alması keçmiş SSRI-ni nəinki ciddi narahat etdi, həm də ona qorxu yaşatdı. Bu hərəkatın imperiyanı diz çökdürəcəyini güman etdi. Bu səbəbdən də müxtəlif əsası olmayan bəhanələrlə Bakıya qoşun yeritdi, faciə törətdi. Xalq geri çəkilmədi. Milli azadlıq hərəkatı daha da coşdu. Belə dönməz mübarizələr həmişə qələbəylə nəticələnir; Azərbaycanda gedən milli azadlıq hərəkatı imperiyanın zəncirlərini parçaladı, dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi.



Hakimiyyət boşluğu səriştəsizlik, ölkədaxili siyasi vəziyyəti son dərəcədə kəskinləşdirmişdi, vətəndaş qarşıdurması yaranmaqdaydı. Separatçılıq bu qarşıdurmanı daha da gərginləşdirirdi; dövlətçiliyin itirilməsi təhlükəsi yaranmışdı. Xalq vəziyyətdən yeganə qurtuluş kimi böyük tarixi şəxsiyyət, dahi rəhbər Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ulu Öndər hakimiyyətə qayıtdı. Dövlətçiliyimiz labüd iflasdan xilas edildi. Qısa müddətdə ölkənin iqtisadi inkişafını təmin edəcək böyük beynəlxalq layihələr imzalandı. Bu layihələri təkcə iqtisadi xarakteriylə məhdudlaşdırmaq düzgün deyil, bu layihələr Azərbaycanın



beynəlxalq nüfuzunu da kifayət qədər artırdı. Dünyanın iri dövlətləri Azərbaycanla ikitərəfli, çoxtərəfli müqavilələr imzalamağa, tərəfdaş olmağa böyük maraq göstərməyə başladılar. Ulu Öndər respublikanın iqtisadi inkişafını təmin etməklə, digər sahələrin də inkişafını sürətləndirən tədbirlər gördü: hərbi quruculuq sahəsində görülən təcili və təxirəsalınmaz tədbirlər Azərbaycan Ordusunu nizami ordu kimi formalaşdırdı, nizam-intizam, vahid komandanlıq şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığında müstəsna əhəmiyyətə malik oldu.

Ulu Öndərin sərkərdəliyi ilə Horadiz əməliyyatında Böyük Qələbə qazanıldı. Bu qələbə Azərbaycan əsgərinin ruhunun qələbəsi kimi yaşanıldı. Bütün bunlar Qurtuluş gününün qüdrətiylə yazıldı. Bu, ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu artırdı. Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev mərhələsi dövlətimizin iqtisadi, mədəni inkişafında müqayisəyəgəlməz yeniliklər mərhələsi kimi tarixləşdi.

Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafı ilə bağlı böyük işlər görülüb. Dünya şöhrətli ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinin adının əbədiləşdirilməsi, dünyanı heyrətləndirən Dədə Qorqud dastanının 1300 illiyinin keçirilməsi, Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsi, "yerə ensə də səma şairi" kimi sevilən ustadın nəşinin Naxçıvanda torpağa tapşırılması Ulu Öndərin əvəzsiz xidmətlərindəndir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Təlim və Tədris Mərkəzinin yaradılması ordu quruculuğunda mühüm yenilik kimi dəyərli oldu. Böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçiliyini təhlükədən xilas etməklə iqtisadi inkişafın da başlanğıcı oldu. Bu inkişaf bütün sahələrdə yenilənən inkişafı təmin etdi.

Ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan jurnalistikasının inkişafına da gözəl şərait yaradıldı. Söz azadlığı cəmiyyət-media münasibətlərinin şəffaflaşmasında etibarlı zəmin oldu. Azərbaycan mətbuatı kəmiyyət və keyfiyyət baxımından yeni bir mərhələyə qədəm qoydu ki, bu mərhələni tam məsuliyyəti ilə yeni jurnalistikamızın Heydər Əliyev mərhələsi adlandıra bilərik; senzuranın götürülməsi mətbu sözün məsuliyyətini də artırdı, təsirliyini də. Onun "Mətbuatın dostu" adına layiq görülməsini mətbuatın bu mərhələyə verdiyi dəyər hesab etmək lazımdır....

Qurtuluş günü tarix yaratdı - dövlətçiliyimiz xilas edildi, milli qarşıdurma aradan qaldırıldı, separatçılıq meyillərinə son qoyuldu. Qazanılan nailiyyətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ümummilli Liderin formalaşdırdığı ordu bu gün nəinki Cənubi Qafqazda, dünyada ən güclü ordular sırasındadır...

Ulu öndər Heydər Əliyev əbədiyyən yaşayacaq böyük tarixi şəxsiyyətdir...

* * *

Böyük tarixi şəxsiyyətlər əbədiyyən yaşayır.

Tarixi günlər unudulmur. Əslində hər tarixi gün xalqın tarixidi və xalq öz tarixini mühafizə edir. Min illərdi belədi, əbədiyyən belə də olacaq.

**Baş leytenant Günay TAĞIYEVA,**
**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iyunun 7-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimləri başlayıb.*



İyunun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov birgə döyüş atışlı taktiki təlimi izləyiblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə raport verib.

İdarəetmə məntəqəsində əməliyyat taktiki təlimin planı diqqətə çatdırılıb. Bildirilib ki, təlimin keçirilməsində məqsəd qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətini koordinasiya etməkdən ibarətdir. Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin iştirakı ilə keçirilən təlimə 5 minə yaxın şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı, silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 300-ə yaxın avtomobil texnikası cəlb edilib. Təlim zamanı şəxsi heyətin qidalanması və məişət şəraiti üçün də lazımi tədbirlər görülüb.



Naxçıvan Qarnizonu Qoşunlarının istifadəsində olan silah, texnika və döyüş maşınları ilə tanışlıqdan sonra təlimə start verilib.

Təlimin ssenarisinə əsasən, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taborundan ayrılmış taktiki hava desantı müdafiəmizin yaxın dərinliyində yerləşən yüksəklik istiqamətində irəliləyən düşməni məhv etmək üçün vertolyotdan əraziyə endirilib. Qrup tərəfindən düşmənin kəşfiyyat dozoru aşkarlanaraq məhv edilib. Tabora atəş dəstəyi üçün "D-44" topu vertolyotla yüksəkliyə çatdırılıb. Yaranmış şəraitdən məharətlə istifadə edən bölmələrimiz yüksəklikdə möhkəmlənərək, düşmənin canlı qüvvəsini və zirehli texnikasını məhv edib, düşməni ağır itkilər verərək geri çəkilməyə məcbur olub.

Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi təyinatlı qrupları fəaliyyətə başlayıb. Həmlə qrupu ərazinin relyefindən və məhdudgörmə şəraitindən yararlanaraq düşmənin müdafiə mövqeyinə basqın edib. Əlahiddə Əməliyyat Briqadasının yüksək manevr qabiliyyətinə malik "KOBRA" tipli zirehli döyüş maşınları qrupa atəş dəstəyi veriblər.

Təlimin gedişində tank, "ZMA", "Xrizantema-S", "TOS-1A" və "ZU-23-2" tərkibində bölük taktiki qrupu mövqelərimiz arasındakı boşluqları tutaraq müdafiəni gücləndiriblər. Əlahiddə Ümumqoşun Ordunun raket-artilleriya birləşmə və hissələri müdafiə olunan bölmələrin atəş dəstəyinə başlayıb, ən uzaq hüdudlarda düşmənin irəliləyən motoatıcı və tank bölmələrinə, atəş mövqeyində olan artilleriya və minaatan batareyalarına, hava hücumundan müdafiə vasitələrinə, komanda məntəqələrinə zərbələr endiriblər. "SU-25" hücum təyyarələri isə düşmənin irəliləyən bölmələrinin qarşısını aviabombalarla alıb.

Düşmənin hücum edən bölmələrinin tankları, zirehli texnikası və canlı qüvvəsi "T-90 S" tanklarının sərrast atəşi ilə zərərsizləşdirilib. "TOS-1A" yaylım atəşli ağır odsaçan sistemi düşmənin dayaq məntəqələrini tələfata uğradıb. Bu zaman həmləyə keçən düşmən tankları "Xrizantema-S" tank əleyhinə idarə olunan raket kompleksinin atəşi ilə məhv edilib. "OSA-1T", "İqla-S" və "ZU-23-2" hava hücumundan müdafiə vasitələrinin atəşi ilə düşmən aviasiyasının hücumları dəf olunub. Tank, "PDM-2", "ZMA", minaatan, "AQS-30", snayper və digər atıcı silahların atəşi ilə hücum edən düşmənin zirehli texnikası və canlı qüvvəsi məhv edilib, "Mİ-35" vertolyotlarının məharətli atəş zərbələri ilə sıradan çıxarılıb.

Ordunun raket-artilleriya birləşmə və hissələri bölmələrimizin əks atəş hazırlığına başlayıblar. Ordu aviasiyası düşmənin aşkar olunmuş zirehli texnikasına, ehtiyatlarına və komanda məntəqələrinə zərbələr endirib. Atəş basqınından yararlanan tabor taktiki qrupları sürətlə düşmənin ön xəttinə yaxınlaşaraq döyüş düzülüşünə açılıb, ön xətdə və yaxın dərinlikdə yerləşən düşmənin atəş vasitələrini məhv ediblər. Tank və digər döyüş maşınlarının sərrast atəşi ilə düşmənin zirehli texnikası, sığınacaqlarda olan atəş vasitələri məhv edilib. Güclü atəş imkanına malik olan tabor taktiki qrupları düşmənə cinahlardan zərbələr endirib.

Hərəkəti təminetmə dəstəsi bir istiqamətdə düşmənin tank əleyhinə xəndəkləri üzərində körpü qurub, digər istiqamətdə isə mina sahəsindən keçidlər açaraq ehtiyatların irəliləməsinə nail olub. Təxliyə qrupları döyüş meydanında vurulmuş texnika və yaralıların təxliyəsini həyata keçiriblər. Hücumun inkişaf etdirilməsi və cinahlara doğru genişləndirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordunun ehtiyatları döyüşə salınıb, düşmən ehtiyatlarının irəliləməsinin qarşısının alınması məqsədi ilə taktiki və hava desantları endirilib. Beləliklə də Naxçıvan Qarnizonu Qoşunları Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri ilə birgə təlimdə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetirərək şərti düşmən üzərində zəfər qazanıblar.

Sonda Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqları "SU-25" hücum təyyarələrinin və vertolyotların müşayiəti ilə döyüş meydanında nümayiş olunub.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov əsgər və zabitləri salamlayıb, onları və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə



təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Müstəqil Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycan Ordusudur". İşğalçı ölkə ilə sərhəddə yerləşməsi və blokada şəraitində yaşaması Naxçıvan Muxtar Respublikasında müdafiə təhlükəsizliyini əsas məsələlər sırasına çıxarmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Ali Məclisin sədri deyib: Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirmiş, müasir silah və texnika ilə təminat gücləndirilmiş, bunların nəticəsi olaraq Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu gün muxtar respublikadakı ordu, hissə və birləşmələr güclü maddi-texniki təminata, müasir silahlara və peşəkar şəxsi heyətə malikdir. Naxçıvanda ordu quruculuğu sahəsində görülən işlərdə Türkiyə Silahlı Qüvvələrinin dəstəyi də qeyd olunmalıdır. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi məmnunluq doğurur. Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi də bu əməkdaşlığın davamı, eyni zamanda, ordularımız arasındakı birliyin göstəricisidir.

Ali Məclisin sədri deyib: Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, "Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür". Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır.

"Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır", - deyən Ali Məclisin sədri hərbi təlimin uğurla başa çatması münasibətilə şəxsi heyətləri təbrik edib, hərbi təlimin hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirib.

**(Ardı 4-cü səhifədə)**

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib





(Əvvəli 3-cü səhifədə)

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar iki qardaş ölkə silahlı qüvvələrinin birgə fəaliyyəti olan "Sarsılmaz qardaşlıq-2019" təlimləri münasibətilə şəxsi heyətləri təbrik edərək deyib: Regional təhdidlərin artdığı bir dövrdə ölkələrimizin və xalqlarımızın təhlükəsizliyini təmin etməyin yolu güclü və mübariz orduya sahib olmaqdan keçir. Güclü ordu üçünsə müasir silah və texnika, həmçinin peşəkar hərbçilər lazımdır. Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Təlimlərdə əsgər və zabitlərin ərazi və hava şərtləri ilə tanış olması döyüşə hazırlıq baxımından çox əhəmiyyətlidir. Çünki şəxsi heyət döyüş həmlələrini təlimlərdə öyrənir. Xüsusilə, müştərək və birləşmiş təlimlər bir-birimizi tanımamıza, çiyin-çiyinə mübarizə aparmağımıza böyük dəstək verir. Dostluq və birgə əməkdaşlıq çərçivəsində icra etdiyimiz "Sarsılmaz qardaşlıq-2019" təliminin layiqli şəkildə məqsədinə çatdığını və böyük müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi olduq. İki dövlətin bir millət, bir ordu olduğunda nələr edə biləcəyinə bu təlim bir nümunədir. Mustafa Kamal Atatürkün də dediyi kimi: "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir". Qardaş ölkə Azərbaycan və Türkiyə hər cür təhdid və təhlükəyə qarşı kədərdə və sevincdə bərabərdir.

Hulusi Akar təlimlərin yüksək səviyyədə başa çatması münasibətilə Türkiyə Silahlı Qüvvələrinin adından təbriklərini çatdırıb.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək deyib: Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularındandır. Qardaş ölkə ilə olan milli bağlarımız ordu quruculuğu sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır. Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən bəhrələnmək mühüm əhəmiyyət daşıyır. Birgə təlimlər bir daha bütün dünyaya nümayiş etdirdi ki, silahlı qüvvələrimiz hər bir vəzifəni birgə icra etməyə hazırdır və qadirdir. Naxçıvanda keçirilən təlimdə Türkiyə Respublikasının Milli Müdafiə nazirinin iştirakı onun əhəmiyyətini daha da artırdı.

General-polkovnik Zakir Həsənov təlimin uğurla başa çatması münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimə hazırlıqla bağlı görülən işləri diqqətə çatdırıb, hazırlanmış ssenariyə uyğun Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb olunan heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olunduğunu, hədəflərin 85, maketlərin 90 faizindən çoxunun məhv edildiyini bildirib.

Sonra xatirə şəkli çəkdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıblar.

Zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib

*Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından ilki Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyüdür. Bu üçlük Cənubi Qafqazdan əlavə Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji arealı əhatə edir. Bu üçbucağın formalaşmasının əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq, birgə iqtisadi əməkdaşlıq üçün əlverişli şərait və siyasi iradə dayanır.*



Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının əsasında da siyasi iradənin dayandığı vurğulanmalıdır. Müstəqil Azərbaycanın tarixində ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək davam edən mehriban qonşuluq və etibarlı tərəfdaş siyasi xətti dəfələrlə çətin sınaqlardan çıxıb və bu gün də davam etməkdədir.

Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatında növbəti görüş Azərbaycan Respublikasının Qəbələ şəhərində baş tutub. İlk olaraq iyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Gürcüstanın Müdafiə naziri Levan İzoriya ilə görüşüb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin olunması, ikitərəfli, NATO-nun keçirdiyi proqramlar çərçivəsində və digər sahələrdə aparıldığını qeyd edib və bu əməkdaşlığın fəaliyyət sahələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Zakir Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirən Gürcüstanın Müdafiə naziri bunun ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu deyib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq planı imzalanıb.

Həmin gün Qəbələ şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə görüşüb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin gündən-günə inkişaf etdiyini və möhkəmləndiyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Zakir Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Türkiyəli nazir də öz növbəsində Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərinin genişlənməsində bu cür görüşlərin vacibliyindən danışıb.

Görüşdə regional və qarşılıqlı əməkdaşlığa dair digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

İyunun 12-də Qəbələ şəhərində yerləşən Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya arasında üçtərəfli formatda görüş keçirilib.

Görüşdən əvvəl Müdafiə nazirləri Qəbələ şəhərinin mərkəzində ucaldılmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini, eləcə də Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək önlərinə gül dəstələri qoyub, xatirələrini hörmət və ehtiramla yad ediblər.

Müdafiə nazirləri görüşdə regiondakı hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərinin müzakirəsi və üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb və kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

Müstəqillik illəri ərzində üçtərəfli münasibətlər siyasi, iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik-müdafiə sahələrini əhatə edə bilib. İndiyə kimi ölkə rəhbərləri, xarici işlər, müdafiə və iqtisadiyyat nazirləri arasında ayrı-ayrılıqda görüşlər keçirilib və son görüş də həmin görüşlərin davamıdır.

Son görüş də göstərdi ki, müstəqillik illərində yaranmış bu uğurlu əməkdaşlıq üçbucağı heç bir başqa dövlətə qarşı yönəlməyib. Bu əməkdaşlıq müxtəlif sahələri əhatə edir və böyük enerji və nəqliyyat layihələrinin birgə müəllifləri olaraq yaranıb. Zaman keçdikcə üç ölkə arasında daha da inteqrə olunmuş münasibətlər yaranır. Azərbaycan-Gürcüstan-Türkiyə arasında əməkdaşlıq regionda sülhün və sabitliyin qorunmasına və rifah səviyyəsinin artırılmasına xidmət edir. Bir sözlə, Qafqazda davamlı sülh və tərəqqi üçün Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatını uğurlu model adlandırmaq olar.

**"Azərbaycan Ordusu"**

# Zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilib

*Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 11-də "N" hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə iştirak ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev tədbirə hazırlıqla bağlı raport verib.

Açılışı bildirən lent kəsilib. Məlumat verilib ki, 44 mənzilli yaşayış binası 5 mərtəbədən və 3 girişdən ibarətdir. İki, üç və dördotaqlı mənzillərdə bütün kommunal-məişət şəraiti yaradılıb, fərdi istilik sistemi qurulub. Mənzillər mebel dəstləri və məişət əşyaları ilə tam təmin olunub. Binanın həyəti də abadlaşdırılıb, istirahət köşkü istifadəyə verilib.



Bina ilə tanışlıqdan sonra zabit-gizir ailələri ilə görüş olub.

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar çıxış edərək deyib: Bu gün istifadəyə verilən yaşayış binasında hərbçi ailələri və onların övladları yaşayacaqdır. Naxçıvanda olmaq və bu tədbirlərdə iştirak etmək qürurvericidir. Naxçıvan müasir və təmiz şəhərdir. Muxtar respublikanın inkişafı, qazanılan uğurlar, burada gördüklərim bizi sevindirməklə yanaşı, həm də güvən yaradır.

Hulusi Akar yeni yaşayış binasının istifadəyə verilməsi münasibətilə hərbçi ailələrini təbrik edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə zabit-gizir ailələrini təbrik edərək deyib: Hər bir zabitin həyatında mənzilin çox böyük önəmi vardır. Çünki ailəsinin rahat yaşayışının təmin olunması zabitin xidmətinin uğurlu olmasında başlıca şərtdir. Dövlətimiz xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların əməyini daim yüksək qiymətləndirir. Xidmət zamanı onlar hərtərəfli qayğı ilə əhatə olunur, eyni zamanda, 20 il qüsursuz xidmət edənlərə dövlət tərəfindən mənzillər verilir, digər güzəştlər tətbiq olunur. Bütün bunlar isə imkan verir ki, zabitlər öz xidmətlərini uğurla apararaq ordumuzun güclənməsinə töhfə versinlər.

Ali Məclisin sədri deyib: Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Həmçinin, ordumuz davamlı inkişaf mərhələsindədir. Bu da imkan verəcək ki, gələcəkdə Azərbaycan Ordusu torpaqlarımızın müdafiəsini etibarlı təşkil etməklə yanaşı, həm də işğal olunmuş torpaqlarımızı azad etsin.

Ali Məclisin sədri 15 İyun - Milli Qurtuluş Günü və qarşıdan gələn 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi qulluqçuları, eləcə də onların ailələrini təbrik edib, yeni xidməti mənzillə təmin olunanlara rahat və firavan həyat arzulayıb.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mənzillə təmin olunan ailələri təbrik edərək deyib: Azərbaycan dövləti hər zaman ordunun yanındadır. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev daim zabitlərin sosial qayğıları ilə maraqlanır, onların problemləri vaxtlı-vaxtında həll edilir. Naxçıvanda hərbçi ailələri üçün müasir xidməti yaşayış binasının istifadəyə verilməsi muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin rəhbərliyi ilə muxtar respublikada ordu quruculuğu sahəsində mühüm işlər görülür. Bu gün Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığı yüksək səviyyədədir və aparıcı qoşun birliyi kimi Azərbaycan Ordusunda layiqli yer tutub.

Mənzillə təmin olunmuş zabit Məhəmməd Hüseynov göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək deyib: Muxtar respublikada xidmət müddətində hərbi qulluqçuların məişət şəraitinin daim diqqət mərkəzində olduğunun şahidi olmuşuq. Bu gün Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində yeni əsgər yataqxanalarının, tibb məntəqələrinin, təlim-tədris mərkəzlərinin, hərbi şəhərciklərdə yeni yaşayış binalarının tikilməsi və məişət avadanlıqları ilə təchiz olunması buna bariz nümunədir. Hərbi qulluqçular öz ailələrinin məişət şəraitindən, övladlarının təhsilindən, tibbi və sosial xidmətlərdən narahat deyillər. Bu da bütün hərbi qulluqçuların məsuliyyətini daha da artırır. Söz veririk ki, göstərilən diqqət və qayğını öz xidmətimizlə doğruldacağıq.

Hərbçi ailəsinin üzvü Vüsalə Abdullayeva deyib: Bu gün Naxçıvan Muxtar Respublikasının inkişafı göz önündədir. Hər gün müasirləşən və gözəlləşən bir diyarda yaşayırıq. Mən Qəbələ rayonunda doğulub boya-başa çatsam da, hərbçi ailəsinin üzvü olduğum üçün bu gün Naxçıvanda yaşayıram. Naxçıvan Muxtar Respublikasında yeni qəsəbələr tikilir, yollar çəkilir, tarixi abidələr bərpa olunur. Hərbçi ailələri Ali Məclis sədrinin diqqət və qayğısını daim öz üzərində hiss edir. Hərbi qulluqçuların sosial-məişət problemlərinin həlli istiqamətində ardıcıl tədbirlər görülür.

Vüsalə Abdullayeva hərbçi ailələri adından Ali Məclisin sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mənzillə təmin olunmuş hərbi qulluqçuları və onların ailə üzvləri ilə xatirə şəkli çəkdiriblər.

15 İyun - Milli Qurtuluş Günü və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə mənzillə təmin olunan hərbçi ailələrinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından xalça hədiyyə edilib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 15 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***14 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Təğıbəyli, Şıxlar, Mərzili, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ictimai nəzarətin gücləndirilməsi, şəffaflığın təmin edilməsi, ordu və xalq birliyinin daha da möhkəmləndirilməsi, əsgər ailələri ilə aparılan işin səmərəliliyinin daima artırılması məqsədilə, Silahlı Qüvvələr Günü ərəfəsində iyunun 22-də saat 10.00-da Azərbaycan Ordusunun tabeliyində olan bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü tədbirləri keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əsgər yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanalarına və yeməkxanalarına baş çəkəcəklər.

"Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək.

# Bakıda Azərbaycan və Böyük Britaniya hərbi orkestrlərinin birgə nümunəvi çıxışı olub



*Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən, Böyük Britaniya və Şimali İrlandiya Kral Ordusunun "The Salamanca Band & Buqles of The Rifles" hərbi orkestri növbəti dəfə ölkəmizə səfərə gəlib. Səfər çərçivəsində Fəvvarələr meydanında açıq səma altında Azərbaycan Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin və Böyük Britaniya və Şimali İrlandiya Kral Ordusunun "The Salamanca Band & Bugles of The Rifles" hərbi orkestrinin konserti və birgə nümunəvi çıxışları təşkil edildi.*

Rəngarəng musiqilərdən ibarət konsert proqramını Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Karol Krofts, bu ölkənin Azərbaycandakı hərbi attaşesi polkovnik-leytenant Deyvid Ethelli və başqa şəxslər izlədilər.

Əvvəlcə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr Xidmətinin rəisi, Xalq artisti, professor, general-mayor Yusif Axundzadə konsert proqramını açaraq qonaqları və şəhər sakinlərini salamlayaraq, onlara maraqlı, xoş istirahət arzuladı.

Konsert proqramı dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüranın səsləndirilməsi ilə başladı. Sonra hərbi orkestrlər vətənpərvərlik mahnıları, müxtəlif marşlar, Azərbaycan, ingilis və dünya bəstəkarlarının tanınmış müasir, klassik musiqi əsərlərindən parçalar, şən, ritmik mahnılar səsləndirdilər.

Hərbi orkestrlərin nümunəvi çıxışları istirahət edən insanlara xoş ovqat bəxş etdi, şəhərimizin qonaqlarında yüksək əhval-ruhiyyə yaratdı.

Konsert proqramını maraqla izləyən bir neçə şəhər sakininə yaxınlaşıb, onlardan hərbi orkestrlərin çıxışları barədə təssüratlarını öyrəndik.

Xalq artisti Yaşar İmanov konserti böyük maraqla, həvəslə izlədiyini dedi: "Əsl musiqi sənət əsəridir, onun dili olmur. Musiqi özü səninlə danışır. Onu sən də maraqla dinləyirsən. Musiqi istər ingilis, istərsə də Azərbaycan dilində səslənsin, onu hər kəs başa düşə bilir. Bu gün mənə çox xoş oldu. Ölkəmizdə belə yüksək səviyyədə hərbi orkestrlərin çıxışlarının açıq havada təşkili təqdirəlayiqdir."

Lalə və Nuridə Axundzadələr iki fərqli dildə musiqilərin açıq səmada səsləndirilməsinin şəhər sakinlərinin və qonaqların da istirahətinə əlavə rəng qatdığını qeyd etdilər: "Biz ailəvi olaraq konsert proqramını əvvəldən sonuna qədər dinlədik. Hər bir musiqi bizdə yüksək əhval-ruhiyyə yaratdı. Konsert proqramı rəngarəng musiqilərdən ibarət idi. Çox xoş oldu. Mənəvi istirahət etdik."



Bakı Dövlət Universitetində ingilis dili müəllimi işləyən Nailə Orucova, İncəsənət gimnaziyasının müəllimi Gülnarə Məmmədova ölkəmizdə qonaq olan digər bir dövlətin hərbi orkestrinin çıxışının onlarda da xoş əhval-ruhiyyə yaratdığını dedilər. "Belə hərbi vətənpərvərlik mahnılarından, marşlardan, klassik musiqilərdən ibarət konsert proqramlarının açıq səmada təşkil olunması çox gözəl bir ənənədir."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

*NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla Əfqanıstandakı missiyada iştirak edir.



# Heydər Əliyev Fondu tərəfindən Qarabağ müharibəsi əlili üçün yeni ev tikilib

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Ucar rayonunun ən iri yaşayış məntəqəsi olan Qaracallıda kənd sakini, ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi evin tikintisi başa çatıb.*

AZƏRTAC-ın bölgə müxbiri Qaracallı kəndində olub, Şöhrət Qasımovun ailəsinə baş çəkib.

1978-ci ildə anadan olan Şöhrət Qasımov ailənin ən böyük övladıdır. Üç qardaş, bir bacıdırlar. Hərbi xidmətdə olarkən 1998-ci il iyulun 18-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndində ermənilərin qəfil hücumuna məruz qalıblar. Gərgin keçən atışmada bir ayağının dizdən aşağı hissəsini itirib.

Yeni evin sevincini yaşayan Şöhrət Qasımov Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirərək deyib: "Mənzil şəraitimiz çox pis idi. Mehriban xanıma müraciət ünvanladım. Çox sağ olsun, müraciətimə dərhal cavab verildi və qısa vaxtda gözəl ev tikildi. İndi burada həyat yoldaşım və 2 övladımla - Azərbaycanın gələcək əsgərləri ilə rahat yaşayırıq. Bu rahatlığı bizə bəxş edən Heydər Əliyev Fonduna, fondun prezidenti Mehriban Əliyevaya çox-çox minnətdaram".

Ölkəmizdə əlillərə xüsusi diqqət və qayğı göstərildiyini deyən Qarabağ müharibəsinin əlili Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın erməni qəsbkarlarından azad ediləcəyi günü səbirsizliklə gözləyir.

Qeyd edək ki, həyat yoldaşı və 2 övladı ilə ağır mənzil şəraitində yaşayan Şöhrət Qasımov bir müddət öncə Heydər Əliyev Fondunun "Regional inkişaf" İctimai Birliyinə müraciət ünvanlayıb. Müraciətdən sonra bu ilin fevralında əraziyə baxış keçirilib və yeni evin layihəsi hazırlanıb. Fondun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə təcili tikinti işlərinə başlanıb və Qarabağ əlilinə məxsus həyətyanı sahədə 4 aya üç otaqlı, tam təmirli, mətbəx mebeli ilə təchiz olunan, su çəni və suqızdırıcı avadanlıq qoyulan fərdi ev inşa edilərək, ailəyə təhvil verilib.

# Ekoloji təhlükəsizliyin təmin edilməsinə və ətraf mühitin mühafizəsinə dair konfrans keçirilib

2019-cu tədris ilinin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Sanitar-Epidemioloji Nəzarət Mərkəzində Tibb Baş İdarəsinin Ekologiya və təbiəti mühafizə şöbəsi tərəfindən "Hərbi hissələrdə şəxsi heyətin ekoloji təhlükəsizliyinin təmin edilməsi və ətraf təbii mühitin mühafizəsi" mövzusunda konfrans keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, konfransda hərbi hissələrdə gündəlik fəaliyyət zamanı şəxsi heyətin ekoloji təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin və hərbi əmlakın ekstremal amillərdən qorunması, şəxsi heyətin sağlam ekoloji təmiz mühitdə xidmətinin və yaşayışının təmin olunması barədə müasir elmi-nəzəri və praktiki nəticələrə əsaslanan təqdimatlar və məruzələr dinlənilib.

Tədbirdə, həmçinin hərbi hissələrin yerləşdiyi ərazilərdə ətraf mühitin mühafizəsi, Hərbi Dəniz Qüvvələrində Xəzər dənizi akvatoriyasında çirklənmənin qarşısının alınması və bioloji müxtəlifliyin qorunması, şəxsi heyətin təlim məşqləri və döyüş hazırlığı zamanı ətraf təbii mühitə dəyə biləcək ziyanın qismən azaldılması, işğal olunan ərazilərdə düşmən tərəfindən ətraf mühitə vurulan ziyanla bağlı müzakirələr aparılıb.

# Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası iştirakçıları Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası iştirakçılarından bir qrupu 15 İyun - Milli Qurtuluş Günü ərəfəsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub və gələcəyin zabitləri ilə görüşüblər.

Əvvəlcə UNEC-in professor, müəllim və tələbələrindən ibarət qrup 2004-cü il iyunun 25-də təntənəli açılışı olmuş "General Heydər Əliyev" abidəsini ziyarət edərək qarşısına güllər düzüb, Ulu Öndərin xatirəsinə yaradılmış İdeoloji mərkəzin ekspozisiyası, eləcə də məktəbin maddi-texniki, təlim-tədris bazası ilə yaxından tanış olublar. Müəllimlərin, zabitlərin təcrübəsi və peşəkarlığı, kursantların fəallığı, ümumiyyətlə, son illərdə ordu quruculuğunun digər sahələrində olduğu kimi, hərbi təhsil sistemində aparılan islahatların uğurlu nəticələri də ilk tanışlıqdan qonaqlarda xoş təəssürat oyadıb.

Aksiyanın əlaqələndiricisi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bildirib ki, xalqımızın Ümummilli Lideri hərbi peşəyə həmişə xüsusi önəm verər və bu istiqamətdə bəlkə də çoxlarının xəyalına belə gəlməyən, analoqu olmayan neçə-neçə fundamental layihəni reallaşdırardı.

Ötən əsrin 70-ci illərinin əvvəllərində - sovet rejiminin sərt mənGənəsində indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin təməlinin qoyulması və bu hərbi təmayüllü təhsil ocağından pərvazlanan yüzlərlə, minlərlə azərbaycanlı gəncin keçmiş ittifaqın demək olar ki, bütün xüsusi təyinatlı təhsil müəssisələrinə göndərilməsi, oranı müvəffəqiyyətlə bitirərək müxtəlif qoşun növlərində peşəkar zabit kimi xidmət etməsi tarixi hadisədir. Kremlin etirazlarına, bu məktəbin bağlanılması üçün apardığı məkrli düşmənçilik siyasətinə sinə gərərək müdrik və qətiyyətli liderimiz Heydər Əliyev bu təhsil ocağını doğma övladı kimi böyüdərək 30 yaşına çatdırmış və yubileyini ümumxalq bayramı kimi qeyd etmişdir.

Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən, Ermənistanın torpaq iddiaları ilə ölkəmizə təcavüzündən sonra hiss etdik ki, həqiqətən, Heydər Əliyevin yaratmış olduğu bu məktəb olmasaydı, bugünkü güclü və qüdrətli Azərbaycan Ordusu haqqında fikir yürütmək çətin olardı. Məhz Heydər Əliyev Azərbaycanın sabahlarını düşünərək bu məktəbi yaratmaqla gələcək ordumuz üçün peşəkar zabit kadrlarının yetişdirilməsi qayğısına qalmışdı. Bununla yanaşı, Heydər Əliyev Azərbaycanda fəaliyyət göstərən Bakı Ümumqoşun Komandirləri və Hərbi Dənizçilik Məktəblərinə azərbaycanlı gənclərin daha çox qəbul edilməsinin də təşəbbüskarı və təşkilatçısıdır.



Polkovnik A.Qurbani nəzərə çatdırıb ki, 26 il öncə xalqın xahişi və tələbi ilə respublika hakimiyyətinə yenidən qayıdan Heydər Əliyev Azərbaycan Ordusunun peşəkar kadrlara olan tələbatını mükəmməl təmin etmək üçün çox ciddi addımlar atmışdır. 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrimiz üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, onların ixtisasının artırılması, hərbi iş sahəsində elmi tədqiqatların aparılması və dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-siyasi məsələlərin öyrənilməsini təmin etmək məqsədilə Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, Naxçıvan Muxtar Respublikasında yeniyetmələrin hərbi təhsil alması üçün ən əlverişli şərait yaratmaq məqsədilə 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması (bu filialın bazasında Prezident İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Lisey yaradılıb və Ulu Öndərin adı ilk dəfə burada əbədiləşdirilib) Azərbaycana rəhbərliyinin bütün dövrlərində hərbi təhsilə xüsusi diqqət yetirən Ümummilli Liderimizin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindəndir.



Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanda müasir hərbi təhsil sisteminin yaradılmasının banisidir və Azərbaycan Ali Hərbi Məktəbinə Ulu Öndərimizin adının verilməsi məntiqidir. Heydər Əliyev dəfələrlə bu ali hərbi məktəbdə olmuş, müəllim, zabit, kursantlarla görüşərək tövsiyə və tapşırıqlarını vermiş, hərbi təhsilin inkişafına daim diqqət və qayğı göstərmişdir.

Heydər Əliyevə görə, hərbi təhsil almaq, Silahlı Qüvvələrdə xidmət etmək istəyən hər bir şəxs sağlam mənəviyyata malik olmalıdır. Sağlam mənəviyyat isə Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, müstəqilliyimizə sədaqətdən ibarətdir.

Əsaslı surətdə təmir edilmiş klubda keçirilən görüş isə həm məktəb kollektivinin, həm də UNEC-çilərin böyük marağına səbəb olub. Aksiya iştirakçıları qürur hissi keçiriblər ki, Azərbaycanımızda dünya ordularının xüsusi təyinatlı təhsil müəssisələri ilə rəqabət apara biləcək belə bir hərbi təhsil ocağı var. Zabitlər, kursantlar isə fəxr ediblər ki, onlara mənəvi dəstək olan və xidmətlərini yüksək qiymətləndirən UNEC-in vətənpərvər professor, müəllim və tələbələri vardır.

Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə dövlət himni ifa olunub.

Universitetin iqtisadi məsələlər üzrə prorektoru, hüquq elmləri namizədi, Qarabağ müharibəsinin iştirakçısı, dosent Mikayıl Zeynalov rektor professor Ədalət Muradovun və 20 min nəfərlik UNEC kollektivinin adından gələcək zabitləri, onların müəllim və komandirlərini salamlayıb.

İqtisadi İslahatlar İnstitutunun direktor müavini, iqtisad elmləri doktoru, professor Rövşən Quliyev məktəbi ziyarət etdikdən sonra Azərbaycan Ordusunun sabahının bu günündən daha qüdrətli olacağına inamının daha da artdığını qeyd edib.

Beynəlxaq Magistratura Mərkəzinin direktoru, iqtisad elmləri namizədi, dosent Fariz Əhmədov qardaş Türkiyədə 7 illik təhsil illərini yada salaraq, orada hərbi təhsil sahəsindəki uğurları xatırlayaraq Azərbaycan Ordusunda da müstəqillik illərində bu istiqamətdə görülmüş işləri yüksək qiymətləndirib.

Rus İqtisad Mərkəzinin direktoru, iqtisad elmləri namizədi, dosent Mənsur Bərxudarov təhsil sistemində hərbi təhsilin xüsusi çəkisi olduğu barədə danışaraq zabitlik yolunu seçən gənclərə hərbin çətin və şərəfli yollarında büdrəməməyi, bütün sınaqlardan uğurla çıxmağı arzulayıb. Dosent Bərxudarov kursantlara müraciətlə deyib: "Bilirəm, siz hərb elmini dərindən öyrənirsiniz. Unutmayın ki, elm həm ziynət, həm də düşmənlərimizə qarşı kəsərli bir silahdır. Elmlə silahlanan gələcək zabit bütün döyüşlərdən qalibiyyətlə çıxacaq. Onu da yaddan çıxarmayın ki, hərbi təhsil görməmiş, hərb elminin incəliklərinə yiyələnməmiş adamları müharibəyə göndərmək quyuya atmaq deməkdir. Hərb elminə dərindən yiyələnin. Döyüşlərdə keçmiş zabitlərin təcrübəsindən bəhrələnin".

UNEC Qadınlar Şurasının sədri, dosent Təranə Kərimova dəfələrlə cəbhə bölgələrinə səfər etdiyini, sözün həqiqi mənasında, Azərbaycan əsgər və zabitlərinin döyüş və mənəvi-psixoloji hazırlıqlarının, vətənpərvərlik hisslərinin çox yüksək səviyyədə olduğuna heyran qaldığını etiraf edib. O, bugünkü kursantların da Heydər Əliyev ideyalarına, vəsiyyətlərinə həmişə sadiq qalaraq peşəkar hərbçi kadr kimi formalaşacaqlarına şübhə etmədiyini diqqətə çatdırıb.



Dosent Təranə Kərimovanın Ulu Öndərimizdən gətirdiyi bir sitat bütün tədbir iştirakçıları tərəfindən uzun sürən sürəkli alqışlarla qarşılanıb: "Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir, yəni, hərbi peşədir. Siz özünüzü bu işə sərf etməyi qərara almısınız. Mən sizin bu qərarınızı dəstəkləyirəm və Azərbaycan gənclərini dəvət edirəm ki, onların daha çoxu bu peşəni seçsinlər, çünki bu yol şərəfli yoldur, ən şərəfli peşədir".

Qardaş Ahısqa türklərindən olan "Türk dünyası" fakültəsinin dekan müavini, iqtisad elmləri namizədi, dosent Yusif Əliyev Azərbaycan xalqına və dövlətinə Ahısqa türklərinə ən müdhiş zamanlarda qucaq açdığına görə dərin minnətdarlığını bildirib. Azərbaycan Ordusunun bu ölkədə yaşayan bütün xalqların doğma ordusu olduğunu vurğulayaraq, Ahısqa türklərinin də Azərbaycan Ordusunda Vətənə sədaqətlə xidmət etdiklərini, hətta əmisi oğlu Əlinin Qarabağ uğrunda şəhidlik zirvəsinə ucaldığını, İsgəndər Aznaurovun Azərbaycanın Milli Qəhrəmanı səviyyəsinə yüksəldiyini fəxarət hissi ilə dilə gətirərək deyib: "Nə vaxt bir şəhid xəbəri eşidiriksə, onda hər bir Ahısqa türkünün ocağına da yanğı düşür. Hər hansı bir əsgərə güllə dəyirsə, o bizim də qəlbimizə dəyir. Biz qanı bir, canı bir, dini bir, dili bir qardaşlarıq. Düşmənlərimiz sevinməsinlər ki, torpaqlarımızın bir hissəsini işğal ediblər. Onlar nə qədər gec deyil, dərk etməlidirlər ki, Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməyəcəklər. Rədd olub Azərbaycan torpaqlarından çıxıb getməlidirlər. Yoxsa onları tarix heç vaxt bağışlamayacaq".

Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu, "Azərbaycan Bayrağı" ordenli şəhid baş leytenant Nazim Cəbrayılovun həyat yoldaşı, UNEC nəşriyyatının əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Rahilə Cəbrayılova Vətən təhlükədə olanda zabitlik yolunu seçən, Ağdam rayonu uğrunda döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərərək tabeçiliyində olan döyüşçülərlə birlikdə düşmənə canlı qüvvə və texnika sarıdan xeyli itki verən və qeyri-bərabər döyüşdə mühasirə təhlükəsi yaranarkən son qumbarasını sinəsinə sıxaraq özünü düşmənin hərbi texnikasının altına atıb onu partladan və hələ də cənazəsi qaytarılmayan həyat yoldaşını xatırlayıb və Azərbaycan zabitinin həyat yoldaşı, şəhid ailəsi olduğu üçün fəxr etdiyini bildirib.

Rahilə Cəbrayılova ərinin xatirəsinə həsr etdiyi "Ölməzliyə abidə" adlı kitabını məktəbin kitabxanasına hədiyyə edib.

UNEC-in tələbələrindən Mətləb Məmmədov, Elvin Hüseynov, İbrahim Əhmədov, Elgün Zeynalzadə və İbrahim Əlvanoğlu elə bu görüşdən sonra kursantlara qoşulub, Qarabağ uğrunda döyüşlərə atılmağa hazır olduqlarını bəyan ediblər.

Məktəb rəisinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat üzrə müavini polkovnik Emin Səfərov UNEC-in kollektivinə bu vətənpərvərlik təşəbbüsünə görə minnətdarlıq edib.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin ansamblı geniş və rəngarəng konsert proqramı ilə çıxış edib.

Görüş "Əmr et, Ali Baş Komandan, biz döyüşə hazırıq!" adlı ədəbi-musiqili kompozisiya ilə başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" aksiyasının iştirakçıları şəhid qardaşının toy mərasiminə qatılıblar

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası 20 gündən çoxdur davam edir.*

AZƏRTAC xəbər verir ki, iyunun 12-də aksiya iştirakçılarının bir qrupu hərbi hissələrə deyil, Bakıdakı şadlıq evlərindən birinə üz tutaraq orada keçirilən toy mərasiminə qatılıb. Bu xeyirxah vətənpərvərlik təşəbbüsü bəylə-gəlini, eləcə də bütün mərasim iştirakçılarını sevindirib. Deməli, şəhid ailəsi nəinki dövlətin, ümumiyyətlə, bütün cəmiyyətin diqqət mərkəzindədir.

Sevincdən axan göz yaşlarını gizlədə bilməyən Aprel şəhidi əsgər Sarvan Mehrəliyevin anası Xatirə Əliyeva dövlətimizin başçısı İlham Əliyevdən, Birinci vitse-prezident Mehriban Əliyevadan, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyindən, bütün xalqımızdan diqqət və qayğı gördüklərini minnətdarlıqla vurğulayaraq deyib: "Xocalıdan qaçqın düşmüşük. İki oğlumu atasız böyütmüşəm. Bir müddət Ağdam rayonunun Ballar kəndində yaşadıqdan sonra indi də Pirallahıda məskunlaşmışıq. Hər iki oğlum ailə vəziyyətimizə görə 10-12 yaşlarından işləyib mənə yardımçı olublar. Hər ikisini bir gündə hərbi xidmətə yola salmışam. İkisi də Beyləqan-Füzuli bölgələrində xidmət edib. Komandirlərindən dəfələrlə təşəkkür məktubları almışam. Çox vətənpərvər oğullar idilər. İstəməsələr də, hər ay onlara baş çəkməyə gedərdim. Hər cür şəraitləri vardı. Komandirlər onlardan, onlar da komandirlərindən çox razılıq edirdilər. Deyirdilər ki, ana, işğal altındakı torpaqlarımızı azad edərək, özümüz səni Xocalıya aparacağıq. Sarvanla Namiq Lələtəpə uğrunda döyüşlərə də bir yerdə atılıblar. Namiq kəşfiyyatçı-qumbaraatan, Sarvan isə onun köməkçisi idi. Heç xəyalıma da gəlməzdi ki, Sarvanımı döyüşdə itirəcəyəm. Bircə təsəllim ondadır ki, Sarvanım Vətən uğrunda döyüşlərdə şəhid olub. El-obamıza, öz doğma anasına başucalığı gətirib. Təki Vətən sağ olsun. Bu gün Azərbaycan Dövlət İqtisad Universitetinin professor, müəllim və tələbələrinin, eləcə də döyüşçü dostlarının şəhid qardaşı və silahdaşının, oğlum Namiqin toy mərasiminə qəfil gəlişləri bir daha onu göstərdi ki, biz tək deyilik və heç vaxt tək olmayacağıq. Minnətdarlıq etməkdən savayı sözüm yoxdur".



Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Aprel döyüşlərinin iştirakçısı, polkovnik Abdulla Qurbani bildirib ki, bəyin qardaşı Sarvan Lələtəpə uğrunda döyüşlərin ilk şəhididir. Döyüşqabağı onun sevgilisinə yazdığı və ölümündən sonra cibindən çıxan məktub sosial şəbəkələrdən hər kəsə məlumdur. O, yazırdı: "Dünyada gözəl qızlar çoxdur, ancaq mən səni sevirəm. Dünyada vəfalı qızlar da çoxdur. Yenə də mən təkcə səni sevirəm. Əzizim, bu gün bəlkə də mənim son döyüşüm olacaq. Əgər şəhidlik xəbərimi eşidib bir anlığa köks ötürərək "Mən də səni çox sevirdim, Vətən qədər" desən, onda mənim ruhum da şad olacaq".

Sarvan və Namiq Mehrəliyev qardaşları qəhrəmanlıq rəmzimiz olan Lələtəpə əməliyyatının igid döyüşçülərindəndir. Onlar mərdliklə, qələbə əzmi ilə döyüşüb, düşmən üzərinə od ələyiblər. Sursat tükənəndə Sarvan mərmi atəşləri altında ən təhlükəli səngərlərdən keçərək qardaşını və digər döyüşçüləri sursatla təmin edib. Düşmən minamyotundan atılan mərminin qəlpəsi Namiqin dəmir dəbilqəsini dağıdaraq, onu başından yaralasa da, igid döyüşçü atəşlər altında ağır yaralı qardaşı Sarvana tərəf sürünərək ona ilk yardım göstərib. Lakin sevimli qardaşını ölümün pəncəsindən xilas edə bilməyib. Sarvan qardaşının qucağındaca "Anama de ki, bağışlasın. Onu Xocalıya apara bilmədim" deyərək keçinib. Onları təhlükəli mövqedən çıxaran komandir və döyüşçü dostları düşmən üzərinə od ələyərək şəhidimizin qisasını birə-on qat alıblar. Əsgər Sarvan Mehrəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "İgidliyə görə" (ölümündən sonra) medalı ilə təltif olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhid ailəsinə gözaydınlığı verən, bəylə-gəlini təbrik edən polkovnik A.Qurbani Azərbaycan əsgərinin Aprel döyüşlərində olduğu kimi, tezliklə xalqımıza böyük qələbənin də sevincini yaşadacağına əminliyini bildirib.

Cəbhə bölgələrindən gələrək aksiya iştirakçılarına qoşulan Lələtəpə fatehləri - Aprel döyüşlərində göstərdikləri qəhrəmanlıqlara görə "İgidliyə görə" medalı ilə təltif olunmuş hərbi qulluqçulardan Nəsimi Şıxəliyev, İlyas Nəsirov, Asim Əliyev və başqaları bir daha şəhid silahdaşları Sarvanı ehtiramla xatırlayıb, Namiqi təbrik edib, Xatirə anaya xoş arzularını bildiriblər.

Zabit Rahib Qədirli qardaşların xidmət etdiyi hərbi hissənin şəxsi heyəti adından general-mayor Mayis Bərxudarovun bəylə-gəlinə ünvanlandığı təbrik məktubunu oxuyub.

Qəhrəmanlıq mahnıları ifa edilib, vətənpərvərlik şeirləri bir-birini əvəz edib. Milli paltar geyinmiş gizirlər Vüsalə Babayeva və Rəməli Məmmədzadənin "Cəngi" sədaları altında təqdim etdikləri rəqs alqışlarla qarşılanıb.

Aksiya qrupunun rəhbəri, UNEC-in iqtisadi məsələlər üzrə prorektoru, hüquq elmləri namizədi, Qarabağ müharibəsinin iştirakçısı, dosent Mikayıl Zeynalov, UNEC Qadınlar Şurasının sədri, dosent Təranə Kərimova, iqtisad elmləri namizədi, şəhid qardaşı İbrahim Quliyev, UNEC-in əməkdaşı, "Azərbaycan Bayrağı" ordenli, şəhid Nazim Cəbrayılovun həyat yoldaşı Rahilə Cəbrayılova və başqaları Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirən və bu gün alnıaçıq, üzüağ bəylik kürsüsündə oturan şəhid qardaşına, Aprel döyüşlərinin iştirakçısı Namiq Mehrəliyevə universitet rəhbərliyinin təbriklərini çatdırıb. Şəhidimizə rəhmət diləyib, şəhid anasına isə Vətən üçün belə mərd, mübariz oğullar yetişdirdiyinə görə minnətdarlıq edib, Sarvanın adının bu gün toyu olan qardaşının övladının adında yaşayacağını arzulayıblar.

"Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası iştirakçıları şəhid qardaşının, Aprel döyüşlərinin iştirakçısının toy mərasimində yallı halayına qoşularaq rəqs edib, toy mərasiminə yeni bir rəng qatıblar.

Cəbhəboyu bölgələrdə, səngərlərdə, xüsusi təyinatlı təhsil müəssisələrində və bir çox hərbi hissələrdə aksiya çərçivəsində bir-birindən maraqlı tədbirlər keçirilir. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və Müdafiə Nazirliyinin Mətbuat Xidməti bu tədbirləri mütəmadi olaraq işıqlandırır.

# "Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak etmiş türkiyəli hərbçilər üçün mədəni-kütləvi tədbirlər keçirilib



"Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak etmiş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının mənalı istirahətləri üçün mədəni-kütləvi tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni yerləri və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanış olublar.

Türkiyəli hərbçilər gəzinti çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində şəxsi heyətin sosial-məişət şəraiti, silah və texnikaları ilə tanış olub, hərbi hissənin Təlim-Tədris Mərkəzində ordu quruculuğundan bəhs edən sənədli filmə baxıblar.

Qonaqlar hərbçilərimizlə birlikdə nahar ediblər.

# Hərbi pilotlarımızın peşəkarlığı sayəsində düşmən təxribatı uğursuzluqla nəticələnib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 12-də səhər saatlarında cəbhənin Füzuli istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin planlı təlim uçuşları həyata keçirilib.

Bu zaman Ermənistan silahlı qüvvələri "OSA" zenit-raket kompleksini tətbiq etməklə, aviasiya vasitələrimizi vurmağa uğursuz cəhd göstərib. Zenit-raket kompleksindən buraxılan 2 ədəd raket hədəfə dəyməyərək havada partlayıb.

Bu, hərbi pilotlarımızın ustalığı və aviasiya vasitələrimizdə quraşdırılmış müasir cihazlar sayəsində, digər tərəfdən isə düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması, onun idarə olunmasına təhkim edilmiş döyüş heyətinin isə hazırlıq səviyyəsinin aşağı olması nəticəsində mümkün olub.

Düşmən tərəfindən buraxılan raketlərdən birinin hərəkət trayektoriyası və hədəfdən yan keçməsi anı aviasiya vasitələrimizin təlim uçuşlarının çəkilişlərini həyata keçirmək üçün havaya qaldırılan pilotsuz uçuş aparatımız tərəfindən qeydə alınıb.

# Azərbaycan Ordusunda "Ən yaxşı topoqraf" adı uğrunda yarış keçirilib

2019-ci ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun topogeodeziya ixtisaslı zabitləri arasında "Ən yaxşı topoqraf" adı uğrunda yarış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarış zamanı iştirakçılar ərazidə səmtləşmə, Qlobal Mövqetəyinetmə Sistemi (GPS) qurğusu vasitəsilə dayanma nöqtəsinin koordinatlarının təyini, müasir proqram təminatından istifadə edilməsi və fiziki hazırlıq üzrə bacarıqlarını nümayiş etdiriblər.



Üç gün davam edən yarışda iştirakçıların praktiki bacarıqları ilə yanaşı, nəzəri bilikləri də test üsulu ilə yoxlanılıb.

Sonda ümumi nəticəyə görə qaliblər müəyyən olunub.

---

1994-cü ildə "Hərbi Bilik" jurnalına verilmiş 439 nömrəli qeydiyyat sənədi itdiyi üçün etibarsız sayılır.

---

Mayor Qurbanov Vüqar Şakir oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Kapitan Kərimov Sahib Çingiz oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Daştıyev Seymur Baba oğluna 2018-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Aydınlı Şirxan Əhliyyət oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 469
Nüsxə 3950